## YUBİLEY

## Professor
## KAZIMZADƏ QUMRAL-RƏNA ZƏKİ QIZI
(anadan olmasının 60 illiyinə)



Kazımzadə Qumral-Rəna Zəki qızı 1942-ci il noyabrın 5-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1950-ci ildə Bakı şəhəri 134 saylı orta məktəbin birinci sinfinə daxil olmuş və 1960-ci ildə həmin məktəbi bitirmişdi. 1960-cı ildə indiki N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetin fizika-riyaziyyat fakültəsinə qəbul olunub və 1965-ci ildə fizika və ümumi texniki fənlər müəllimi ixtisası ilə Universiteti bitirmişdi. Həmin ildə Universitetin zəmanəti ilə indiki Azərbaycan Dövlət Neft Akademiyasının aspiranturasının əyani şö'bəsinə daxil olmuş, onu bitirmiş və 1969-cu ildə «Yeraltı metal qurğularının elektrik parametrlərinin tədqiqatı və hesablanması və onların rabitə kanalı vəzifəsində istifadə imkanı» mövzusunda texnika elmləri üzrə namizədlik dissertasiyası müdafiə etmişdi.

Əmək fəaliyyətinə 1966-cı ildə başlamış, 1969-cu ildən assistent və 1974-cü ildən dosent vəzifəsində işləmişdi. 1978-ci ildən indiyə kimi ADNA-nın «Elektrotexnika və neft sənayesinin energetikası» kafedrasında dosent və 1999-cu ildən professor vəzifəsində öz fəaliyyətinə davam edir.

1988-ci ildə ADNA ilə Azərbaycan Respublikası Elmlər Akademiyasının Fizika institutu arasında bağlanmış elmi müqavilə nəticəsində 1998-ci ildə «$Ge_{1-x}Si_x$ xəlitələrində aşqar mərkəzlərin əsas energetik halları və elektrik köçürmə hadisələri» mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və fizika-riyaziyyat elmləri doktoru adına layiq görülmüşdü. 1999-cu ildə ADNA-nın şurasında professor vəzifəsinə seçilmişdir. Rəna Kazımzadənin apardığı elmi-tədqiqat işlərinin nəticələri 90-dan yuxarı elmi əsərdə öz əksini tapmışdır. Bir sıra elmi məqalələri MDB ölkələrində, ABŞ, Türkiyə, Yaponiyada dərc olunmuş və Beynəlxalq konfrans və simpoziumlarda məruzə edilmişdir.

1999-cu ildə İngiltərənin Kembric şəhərində yerləşən Beynəlxalq Bioqrafiya Mərkəzində dərc olunmuş «Kim Kimdir?» sorğu kitabına adı düşmüşdü və XX əsrin 2000 həyatda olan görkəmli alimlərin arasında adı çəkilmişdir (II nəşr).

Bundan əlavə həmin mərkəzin Beynəlxalq Bioqrafiya lüğətinə tərcümeyi-halı düşmüş (28 nəşr) və Bioqrafiya Assosiasiyasına üzv seçilmişdir. 2000-ci ildə Rəna Kazımzadə həmin mərkəz tərəfindən 2000-2001-ci illərin «Beynəlxalq Qadını» adına layiq görülmüşdü və Vaşinqtonda keçirilən 27-ci Beynəlxalq Konqresə (millenium congress) Rena xanım şəxsi olaraq dəvət olunmuşdur (2-9 iyul 2000-ci il). Rəna Kazımzadənin Oksfordda dərc olunmuş məqaləsi 11 cilddən ibarət olan «Elm və texnologiya materiallarının ensiklopediyası»na daxil olunmuşdur (sənədlər təqdim olunub). Amerika Bioqrafiya İnstitutu Rəna xanıma sertifikat göndərmiş və onu öz assosiasiyasına üzv seçmişdilər. Oksford Universitetində dərc olunmuş «XX əsrin 2000 intellektualı» lüğətinə adı düşmüş (28 nəşr) və «XX əsrin 2000 görkəmli alim» diplomu ona təqdim edilmişdi. Keçmiş 2000-ci ilin axırında «XX əsrin ən görkəmli insanları» arasında da adı çəkilmişdir (təqdimat göndərilib). Bu yaxınlarda Rəna xanıma yeni bir nominasiyası təqdim olunmuşdur: «2001-ci ilin Beynəlxalq şəxsiyyəti» və «XXI əsrin görkəmli alimi» adı verilmişdir. Beləliklə, XXI əsrdə «Kim Kimdir?» kitabının I nəşrinə yenidən adı düşmüşdür.

Rəna Kazımzadə elmi-tədqiqat işi ilə yanaşı 35 ildən artıq pedaqoji iş ilə fəaliyyət göstərir. Bir sıra metodik işlərin müəllifidir. 1991-ci ildə «Rusca-azərbaycanca elektrotexnika terminləri lüğəti» çapdan çıxmış, 1999-cu ildə «Qeyri-xətti dövrələr» dərs vəsaiti tərtib etmiş (rus dilində) və 2000-ci ildə «Elektrik dövrələrinin nəzəriyyəsi» və «Elektrik təchizatından kurs layihələrinin icrası üçün metodik göstərişlər və tapşırıqlar», «Elektromaqnit sahəsi nəzəriyyəsinin bəzi məsələləri», Laboratoriya işləri üçün tapşırıqlar», «Elektrotexnikanın nəzəri əsasları kursunun proqramı» və başqa dərs vəsaitləri çapdan çıxmışdır (azərb.dilində).

2001-ci ildə «Beynəlxalq ekologiya, energetika və iqtisadiyyat» Akademiyasının həqiqi üzvü seçilmişdir.

Rəna Kazımzadə 1997-ci ildə «Əmək veteranı» adına layiq görülmüşdür. Bu yaxınlarda Akademiyanın 80-illiyi münasibətilə Təhsil Nazirliyi tərəfindər «Fəxri Fərman»la təltif olunmuş.

Redaksiya heyəti